# 4. İLK DALĞANIN HƏYƏCANI

İnsanın mənəvi mühitində ən güclü dəyişilmələr onun düşüncəsinə təsir edən hissi-emosional duyğularla bağlıdır. İllərlə sakit, əgər belə demək mümkünsə, durğun həyat yaşayan bir insan əks cinsə hissi-emosional münasibəti ilə fərqli bir vəziyyət alır. Az qala həyata baxışı dəyişir. Cəmiyyətdəki - öz ətrafında baş verən hadisələr onun üçün daha yeni mahiyyətdə görünür. İnsan təbiətini ucalığa səslənməyən, ümumiyyətlə, şəxsi mənəvidən daha çox maddi tərəfə yönəldən keyfiyyətləri insan dəyərsiz hesab edir. Yada salaq məşhur Mauqlini, yaxud Tarzanı. Əks cinsə münasibət müəyyən səviyyədə şüura yiyələnmiş insan övladının mənəviyyatında necə dərin iz buraxır, onun yaşadığı mühitə münasibətini necə dəyişdirir.

Biz buna sevgi hissləri deyirik. Sevgi hissləri özü ayrıca meyardır və sevən qəlb, sevən ürək daşıyan insan ətrafına məhz bu meyarla yanaşmalı olur, yəni sevgi meyarı ilə. Sevgi meyarı isə ətrafa ali münasibət tələb edir. Yəni insan daxilən o qədər böyüyür ki, o, sevgi müqəddəsliyinin müqabilində zəif və cılız görünən həyat elementlərini dəyərsiz hesab edir.

Belə bir psixoloji mühakimə də bəlkə yerinə düşərdi: Sevməyən insan daha çox deyingən, daha çox qeybətcil, daha çox xırdaçı olur. Əsil sevginin hakim olduğu düşüncə sahibi bütün insanlığa müqəddəs varlıq kimi baxır.

Günümüzə qədər dünya ədəbiyyatının ən nəhəng əsərləri, hətta qlobal problemləri açıqlayan ədəbi-bədii örnəklər məhz sevgi müstəvisindən keçərək düşüncəyə yol aça bilir.

*"Əsrə bərabər gün"* romanını yada salaq. Məşhur Yedigey hətta özünün sevimli dəvəsini qəddarcasına ona görə döyür ki, özü sevgidə gücsüzdür. Baxmayaraq ki, bütün varlığı ilə sevir, amma sevgisini reallaşdıra bilmir; bu sevgini reallaşdıra bilməməkdə məhz dəvəsini günahkar görür. Və bu da eyni zamanda necə bir səfərbərlik gücü kəsb etdiyini, hətta ətrafa qarşı münasibətdə müəyyən mənada *"korluq"* belə yaratdığına sübutdur. Hərçənd ki, bu *"korluq"* cismani korluq deyil. Bu korluq artıq bəsirət gözünün açılmasıdır və zənnimcə, Yedigeyin öz dəvəsini döyməsindən sonra onun bir daxili ağlayışı, sızlarlığı da onun bəraətinə kifayət qədər imkan verir.

Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərinin ikinci hissəsi əsərin qəhrəmanı Sitarənin həqiqi sevgi sarsıntılarının təkcə təsviri deyil, həm də tərənnümüdür. Müəllif sevgi dalğasını ruhunun sarsıntısı olaraq qəbul edən Sitarəni düçar olduğu gərgin sevgi sarsıntıları arasında necə görürsə, o cür də təsvir edir.

Əsərin sevgi notları ilə köklənmiş hissəsini oxuduqca bizdə belə bir təsəvvür yaranır ki, Sitarə o qədər ağıllı qızdır ki, o hətta sevgi axınının qabağında belə sarsıla bilməz. Ancaq həyat göstərir ki, ağıl nəhəng sevgi axınının qabağında asanlıqla tab gətirə bilmir. Ağıl öz yerini hisslərə asanlıqla verir. Başqa sözlə, ağıl hisslərlə döyüşdə təslim olur, özü də acizanə şəkildə təslim olur. Çünki hisslər insanın bütün varlığını işğal edir. Ağıl isə işğal etmək gücündə deyil, çünki ağıl işğal anlamının özünü belə qəbul etmir. Amma hisslər heç bir qadağa tanımır. Hisslər qarşısına çıxan bütün maneələri qarşısıalınmaz axını ilə dağıdır. Ona görə ki, hisslərin arxasında təbiilik dayanır. Bu təbiilik öz gücünü ilahi bir qaynaqla tənzimləyir. Bir sözlə, ağıl hisslərlə döyüşdə elə qabaqcadan tərki-silah olur. Gücsüzlüyünü görüb geriyə çəkilir.

Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərinin ikinci hissəsi bütövlükdə ağıl və hisslərin döyüşü romanını xatırladır. Özü də bu ikinci hissənin nə həcmini, nə də əsərin əvvəlinci hissəsi ilə hansı cəhətdən bağlılığını nəzərə almadan aynılıqda məhəbbət romanı, məhəbbət haqqında elegiya da adlandırmaq olar. Çünki bu hissə əhatə dairəsinə görə, yəni həyatı, insan talelərini ehtiva etmək baxımından kifayət qədər yetkindir. Bir sözlə, insan, həyat, tale anlamlarını özündə ehtiva edən dünya modelini göstərir. Bəli, bu mənada bu ikinci hissə ayrıca bir məhəbbət romanıdır.

Amma burada başqa bir məsələ də var. Çünki əsərin bu hissəsi demək olar ki, cavabsız bir məhəbbət əfsanəsinin ağır iztirablarını ehtiva edən nəğməyə bənzəyir. Elə ona görə də əsərin bu hissəsini biz iztirablı, ağrılı sevgi duyğularını özündə ehtiva edən elegiya adlandırırıq.

Müəllif Sitarənin gündəliyi əsasında qələmə aldığı sevgi romanında obrazları ancaq hissləri, düşüncələri ilə təqdim edir. Hətta Sitarənin sevgisinin nə dərəcədə həssas, nə dərəcədə ülvi, hətta göz nəzərindən belə qorumaq istəyini göstərən bir motiv xüsusilə diqqəti cəlb edir. Sitarə öz düşüncələri boyu sevdiyi gəncin adını belə dilinə gətirmir. Sanki bununla onun ülviliyini, paklığını qorumağa çalışır. Sanki onu yad gözlərdən, nəzərlərdən hifz etməyə çalışır. Müəllifin Sitarənin gündəliyinə əsasən obrazın kimliyinə münasibəti Sitarənin gündəliyinə əsasən tənzimlənir: *"İki gün əvvəl onun səsini eşitmişdim. Telefonda adi danışırdı. Belə maraqlı, diqqətə layiq bir şey yox idi. Bilmirdim, necədir? Qəşəngdirmi, çirkindirmi? Heç bilmirdim də, qəşəngliyinin, çirkinliyinin məsələyə dəxli vardımı? Müxtəlif cür təsəvvür edirdim onu. Boy-buxununu, gözünü-qaşını..."*. Necədir, əziz oxucu? Sevən bir qəlbin çırpıntıları əsasında səssiz dialoqu ilə, yəni düşüncələri ilə təqdim olunan obrazı qədərincə görə bilirsənmi? Bunlar ilkin notlardır. Sitarə sevdiyi gəncin necə ola biləcəyini, hansı formada ola biləcəyini təsəvvüründə canlandırmağa çalışır. Hələ əvvəlcə burada sevgidən söhbət getmir. Sitarə yazı üçün ədəbi qəhrəman seçib. Amma hiss olunur ki, o artıq ilk səsdəncə əsir düşüb. Doğrudur, hələ bu əsirlik qədərincə görünmür. Amma hər halda Sitarənin mənəvi mühitində bir çaxnaşma var, bir narahatlıq var. Bu narahatlıq tufana çevriləcəkmi? Yaxud təzədən özünün sakitlik axarına qayıdacaqmı? Bunu bilmək olmur.

Sitarə mənəvi mühitindəki dəyişikliyi özü hiss edir. Anlayır ki, o deyəsən daha artıq düşünür. Axı əvvəllər kimdənsə yazanda heç bu qədər düşünmürdü. Elə özü də özünə ritorik müraciətlərlə, suallarla düşdüyü anlaşılmaz psixoloji duruma aydınlıq gətirmək istəyir: *"Amma bir şeyi başa düşmürdüm. Bilmirdim ki, yazı yazacağım adam haqqında niyə bu qədər düşünürdüm? Bu vaxta qədər nə qədər adam haqqında yazmışam?! Bir deyil, iki deyil. Bu da onlardan biri deyildimi? Bəlkə də hə, bəlkə də yox. Bircə onu bilirdim ki, onu tez görmək istəyirdim, vəssalam. Niyə bunu arzulayırdım? Nə hiss edirdim? Onu mümkün qədər tez görmək istəyimin səbəbi nə idi axı?!"*. Göründüyü kimi, Sitarə suallarla özünü nəsə anlamadığı dumanlı bir mühitin qarşısında görür. Özü üçün aydınlaşdırmaq istəyir, axı bu nə vəziyyətdir. Hətta nəyi hiss etdiyini belə özündən soruşmaq istəyir. Şübhəsiz, o, sevgi durumu haqqında da düşünmür. Amma hər halda onun özü hiss edir ki, bir cazibə mühitindədir. Və asanlıqla bu cazibə mühitindən çıxmaq mümkün olmayacaq - bunu da anlayır. Bir az da dəqiqləşdirsək, heç bu cazibə mühitindən çıxmaq da istəmir. Çünki bu mühit onun üçün yeni şirinliklər vəd edir.

Əgər Sitarə öz düşüncəsinə görə həyatını əvvəlki axarda saxlamaq istəyirdisə, onda nə üçün yeni cazibə mühitindəki əhvalını saniyələrlə, dəqiqələrlə ölçür. Onun düşüncəsində artıq yeni bir zaman, yeni bir mühit başlayıb. Bu mühitdə hər şey son dərəcə dəqiq zamanla hüdudlanır. Çünki hər dəqiqənin, hər anın öz dəyəri var, qiyməti var: *"Dediyi vaxtdan düz 17 dəqiqə gecikmişdi. Biz düz 6-ya söyləmişdik. Cəmi 4 dəqiqə kitabxanada oturduq. O gələndə birinci mən onu tanıdım. Axşam gözümün önünə gətirdiyim surətlərə, onun barədəki təsəvvürlərimə, heç birinə bənzəmirdi. Amma mənə elə gəlirdi ki, onu çoxdan tanıyıram, illərin tanışıdı"*. Dəqiqdir. Sitarə düşüncələrinə son dərəcə sadiqdir. Necə düşünürsə, öz gündəliyini elə düşündüyü kimi də yazır. Şübhəsiz, bu, yazıçı Ulduz Qasımın yazı manerasına sədaqətidir. O öz qəhrəmanının həyat yolunu məhz onun düşüncələri əsasında göstərir. Başqa sözlə, Sitarə necə düşünürsə, müəllif də elə onu yazır.

Sitarə üçün onun yeni tanış olduğu oğlan kimdir, nəçidir? Əlbəttə, Sitarə onun haqqında müəyyən qədər məlumatlıdır. Ən azı ona görə ki, onun haqqında yazmaq istəyir, onu özünün ədəbi qəhrəmanına çevirmək istəyir. Amma heç özünün də xəbəri yoxdur ki, o, yazmaq istədiyi, artıq yazmağa başladığı, öz cazibəsinə çəkmək istədiyi ədəbi qəhrəmanının cazibəsinə düşüb, onun əsirinə çevrilməkdədir.

Sitarə düşüncələrində, demək olar ki, tərəddüdə yol vermir. O, birmənalı şəkildə yüksələn xətlə onu cəzb edən qüvvəyə doğru gedir. Ancaq onu da hiss edir ki, cazibəsinə düşdüyü qüvvənin son ucunda heç də qeyri-adi bir obraz yoxdur. Görünür, sevgidə, sevginin yaranmasında elə adiliklər var ki, o qeyri-adilikdən qat-qat güclüdür.

Sitarə məhz belə bir adiliyin cazibəsinə düşüb. Bu adilik onu sehrləməyib, ovsunlamayıb. Yalnız həyat cizgiləri ilə, realllığı ilə Sitarəni özünə çəkən bir qüvvəyə çevrilib. Sitarə onun haqqında yazır: *"O, adi oğlan idi. Adidən də adi. Söhbətimiz cəmi 1 saat, 3 dəqiqə çəkdi. Demək olar ki, müxtəlif mövzularda danışdıq. Onun işindən, mənim işimdən, evimizdən, nə bilim, daha nədən, nələrdən... Ömrümdə heç kimin maşınına minməyən mən (taksilərdən savayı) onun maşınında elə oturmuşdum ki, elə bil ömrü boyu bu maşında gəzmişdim. Bu maşına elə mindim, elə bil, doğma adamımın idi. Elə bir adam ki, anamdan, atamdan, bacı-qardaşımdan savayı belə yaxın adamım olmamışdı"*. Maraqlıdır, ilk tanışlıq, qısamüddətli görüş, bir sözlə, ilk təmas Sitarə üçün qarşısıalınmaz bir cazibə sahəsi yaradır. Ona görə ki, Sitarənin özünün mənəvi mühitində, baxmayaraq ki, o bura qədər etiraf etmirdi, xüsusi bir mənəvi aclıq var idi. O, özünün mənəvi mühitini təmin edəcək bir kimsəyə ehtiyac duyurdu. Doğrudur, o bu barədə heç vaxt kimsəyə bir söz demirdi. Ancaq fakt budur ki, Sitarə sanki belə bir günü aclıqla gözləyirdi. Hətta həmin gəncin maşınında belə özünü əminarxayın, ruhən sakit, bir sözlə, həmin maşını da özününkü olaraq qəbul edir və həmin gənc müğənninin maşınında xüsusi bir rahatlıqla yol gedir.

Doğrudur, buraya qədər həmin gəncin müğənni olduğunu yazmasa da, sonralar həmin gəncin müğənni olduğunu, ruhları oxşayan bir ifaçı olduğunu qeyd edir. Bunlar öz yerində. Amma hər halda buraya qədər cazibəsinə düşdüyü gəncin səsinin sehri haqqında heç nə demir. Bu da bizə əsas verir ki, Sitarənin həmin gəncə ilk səs teması ilə bağlanmasının səbəbini düşünək. Sitarə jurnalistdir, onun kimlərinsə haqqında yazması təbiidir. Ancaq burası da var ki, jurnalistlər təsadüfi adamları seçmirlər. Hər halda qabaqcadan həmin şəxsi tanıyır, cəmiyyətdə yerini, əxlaqi, mənəvi keyfiyyətlərini öyrənir, bundan sonra onun haqqında yazmağı qərara alırlar. Bir sözlə, Sitarə artıq kifayət qədər bilir ki, bu gənc kimdir və o, həmin gənc haqqında niyə yazmaq istəyir. Bu sualın da cavabını özü üçün aydınlaşdırıb. Baxmayaraq ki, gündəlikdə bu məqama qədər Sitarənin ədəbi qəhrəmanı haqqında elə bir məlumat yoxdur. Sitarə təbiət etibarı ilə təminatlı gəncdir. Söhbət maddi təminatdan getmir. O kiminlə necə davranacağını yaxşı bilir. Hətta cinslərarası münasibətdə belə buraya qədər bir gözütoxluq da nümayiş etdirir. Yəni söhbət cinslərarası münasibətdə şəhvətdən, bir qızın bir oğlana cinsi istəyindən gedə bilməz. Amma Sitarə onu da yaxşı bilir ki, onun ruhu mənəvi mühitini təmin edəcək kimsəsə möhtacdır. Şübhəsiz, buraya qədər məlumat olmasa da, o, səsini dəfələrlə dinlədiyi müğənni haqqında yazmağı məhz ruhunun tələbi ilə qərara alıb. Kimsə bizdən soruşa bilər ki, axı Sitarə buraya qədər onun haqqında heç bir məlumat vermir. Amma biz çətinə düşünmədən onun haqqında düşüncələrimizi yazıya ona görə gətiririk ki, Sitarə kimi jurnalistlər yazmaq istədiyi ədəbi qəhrəmanını şəxsi tanışlıqdan çox-çox qabaq qədərincə öyrənmiş olurlar. Elə ona görə də bəzi məqamlarda kimlər üçünsə dumanlı görünə biləcək mətləbləri o öz hissləri ilə cavab verir: *"Qəribə bu idi ki, əvvəlcədən mənə desəydilər ki, kimsə bircə gündə sənə bu qədər əziz olacaq, doğma olacaq, inanmazdım. Özüm fikirləşsəydim, özümə də gülərdim. Onu gördəndən sonra ancaq onun haqqında fikirləşirdim. Yuxularım ərşə çəkilib, qaçaq düşüb elə bil..."*. Aydındır. Artıq klassik mənəvi dəyərlərin də təlqin etdiyi hadisə baş verib. Sitarənin daxili dünyasına onun ədəbi qəhrəmanı kifayət qədər hakim olub... Və məhz bu məqamdan sonra biz artıq Sitarəni sözün həqiqi mənasında təbii sevgi qurbanı kimi görürük. Hətta o gələcəyi haqda düşünməkdədir. Çünki sevgisinin uğuruna, gələcəyinə qədərincə inanır. İnamın səbəbi isə bununla bağlıdır ki, o, sevgisində son dərəcə səmimidir və təbiidir. Qarşıya çıxacaq maneələri də elə bu səmimiyyət və təbiiliklə dəf etmək fikrindədir: *"Axı niyə? Birdən yadıma düşəndə ki, məni burada qalmağa qoymayacaqlar, az qalıram, gedim özümü öldürüm. Bilmirəm, günahım nədir ki, Allah mənə bu qədər əzab verir? Bəs mənim arzularım, istəklərim, çap üzü görməyən yazılarım? Üstəlik, bu günüm. Axı bu günə qədər mən heç kimin qəlbinə dəyməmişəm, heç bir günah işlətməmişəm. İstəmişəm dünyada hamı yaxşı olsun, hamı. Hər səhər yuxudan yarımçıq oyanıram. Qulağım qapıda qalır. Elə bilirəm, bu dəqiqə gəlib zorla aparacaqlar məni. Amma zor nədi, bircə dəfə desələr "dur yığış", durub yığışaram"*. Bəli, artıq Sitarə böyük sevginin məstedici duyğuları içərisində şirin xəyalların ruh etibarı ilə buludları üzərindədir. Onun ayaqları artıq yerdən üzülüb.

Böyük sevgilər insanları həmişə yerdən səmalara qaldırmaq gücündə olur.

**20.06.2022**